# AZƏRBAYCAN RESPUBLIKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/20** **9 aprel 2019-cu il**

**Rusiya Federasiyasının "Sodrujestvo" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının nümayəndə heyətinin Bakı şəhərinə işgüzar səfəri ilə bağlı tədbirlərin həyata keçirilməsi ilə əlaqədar işçi qrupunun yaradılması barədə**

Rusiya Federasiyasının "Sodrujestvo" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının nümayəndə heyətinin 2019-cu il 12-15 iyun tarixlərində Bakı şəhərinə nəzərdə tutulmuş işgüzar səfəri ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə **qərara alıram:**

1. "Sodrujestvo" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının nümayəndə heyətinin işgüzar səfəri ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri***

Səbuhi Gülməmədov – Auditorlar Palatasının icraçı direktoru.

***İşçi qrupunun üzvləri***

Fəqan Qarayev – Palata sədrinin müşaviri;

Vəli Rəhimov – Maliyyə və təşkilati-texniki təminat idarəsinin rəisi;

Fatma Kamalova – Xarici əlaqələr, beynəlxalq təşkilatlarla iş və ictimaiyyətlə əlaqə şöbəsinin müdir müavini;

Nazim İsmayılov – Təşərrüfat şöbəsinin müdiri.

2. İşçi qrupuna tapşırılsın ki, bir həftə müddətində Rusiya Federasiyasının "Sodrujestvo" Özünütənzimləyən Auditor Təşkilatları Assosiasiyasının nümayəndə heyətinin 2019-cu il 12-15 iyun tarixlərində Bakı şəhərinə nəzərdə tutulmuş səfərinə dair "Plan-proqram" hazırlanıb təqdim edilsin.

3. Bu sərəncamın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**